AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ PHŞ

UNEC

# ELMİ ŞURA

**10 SENTYABR 2025-Cİ İL**

# QƏRAR EŞ № 202

**SƏDRLİK ETMİŞDİR** **REKTOR PROF. Ə.C.MURADOV**

**ELMİ KATİB:** **Ə.Ə. MUSTAFAYEVA**

**İŞTİRAK ETMİŞDİR:** Universitetin Elmi Şurasının 48 üzvündən 42 üzvü

## E Ş İ D İ L D İ:

***Rektor prof. Ə.C.Muradov***

*Əsasnamə haqqında*

## Q Ə R A R A A L I N D I:

Azərbaycan Dövlət İqtisad Universiteti ***"UNEC Karyera və inkişaf təşkilatı haqqında" Əsasnamə*** təsdiq edilsin.

**ELMİ ŞURANIN SƏDRİ** **PROF. Ə.C. MURADOV**

**ELMİ ŞURANIN KATİBİ** **Ə.Ə. MUSTAFAYEVA**

**TƏSDİQ EDİRƏM**

Azərbaycan Dövlət İqtisad

Universitetinin rektoru i.e.d., professor

________________________Ə.C.Muradov

# Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

# "UNEC Karyera və inkişaf" təşkilatı haqqında

# ƏSASNAMƏ

***UNEC Elmi Şurasının __10 sentyabr__ 2025-ci il tarixli __202__ saylı qərarı ilə təsdiq edilmişdir.***

**UNEC - 2025**

# Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

# "UNEC Karyera və inkişaf" təşkilatının

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. "UNEC Karyera və inkişaf" təşkilatı (bundan sonra "UNEC KİT") UNEC tələbələrinin peşəkar və şəxsi inkişafını dəstəkləmək, onların əmək bazarına hazırlıq səviyyəsini artırmaq və müasir iş dünyasının tələblərinə uyğun bacarıqlar qazanmalarına dəstək olmaq üçün yaradılmış tələbə təşkilatıdır.

1.2. Təşkilat Azərbaycan Respublikasının qanunvericiliyinə, Azərbaycan Dövlət İqtisad Universitetinin Nizamnaməsinə və bu Əsasnaməyə uyğun olaraq fəaliyyət göstərir.

1.3. Təşkilat fəaliyyətində şəffaflıq, inklüzivlik, davamlı inkişaf və könüllülük prinsiplərinə əsaslanır.

## 2. Təşkilatın əsas məqsəd və vəzifələri

2.1. Təşkilat tələbələrə praktiki bilik və bacarıqlar qazandırmaq, onların akademik və peşəkar şəbəkələşməsini təşviq etmək, iş dünyası və sənaye nümayəndələri ilə əlaqələr qurmaq üçün müxtəlif təlim, seminar və layihələr həyata keçirir. Eyni zamanda, tələbələrə işə qəbul prosesi, karyera planlaması, müsahibə texnikaları, layihə idarəetməsi və digər vacib mövzularda təlimlər keçərək onların iş dünyasında uğur qazanmasına kömək edir.

2.2. Təşkilatın əsas vəzifələri aşağıdakılardır:

2.2.1. UNEC tələbələrinin karyera inkişafı üçün təlimlər, seminarlar, vebinarlar və digər maarifləndirici tədbirlərin keçirilməsinə təşəbbüs göstərmək və yardım etmək;

2.2.2. Peşəkar mentorluq və təcrübə proqramlarının təşkili ilə tələbələrin real iş mühiti ilə tanış edilməsinə hərtərəfli dəstək göstərmək;

2.2.3. Liderlik və idarəetmə bacarıqlarının inkişaf etdirilməsi məqsədilə xüsusi təlim və proqramların həyata keçirilməsində yaxından iştirak etmək;

2.2.4. Tələbələrin iş imkanlarından xəbərdar edilməsi və onları uyğun vakansiyalarla tanış etmək üçün əmək bazarı ilə əməkdaşlıq etmək;

## 3. Təşkilata üzvlük, üzvlərin hüquq və vəzifələri, üzvlüyün ləğv edilməsi

3.1. Təşkilata üzvlük bütün UNEC tələbələri üçün keçərlidir və könüllülük prinsipi əsasında həyata keçirilir.

3.2. Üzv olmaq istəyən şəxslər təşkilatın məqsəd və vəzifələrini qəbul etməli və ona uyğun fəaliyyət göstərməlidirlər.

3.3. Üzvlər təşkilatın tədbirlərində iştirak etmək, layihələrdə yer almaq və rəhbər vəzifələrə namizəd olmaq hüququna malikdirlər.

3.4. Üzvlər təşkilatın məqsədinə uyğun fəaliyyət göstərməli, daxili nizam-intizama əməl etməli və təşkilatın inkişafına töhfə verməlidirlər.

3.5. Təşkilatın bütün üzvləri bərabərhüquqludur və aşağıdakı hüquqlara malikdir:

3.5.1. Təşkilatın hər hansısa struktur bölmələrindən birinə seçilmək;

3.5.2. Təşkilatın həyata keçirdiyi tədbirlərdə iştirak etmək;

3.5.3. Təşkilatın fəaliyyəti barədə məlumat almaq;

3.6. Təşkilata üzv olmaq üçün tələbə müvafiq formu doldurmaq məqsədilə qeydiyyat linkinə daxil olur.

3.6.1. Tələbənin üzvlük müraciəti 5 iş günü müddətində nəzərdən keçirilir və idarə heyətinin qərarı ilə namizəd müsahibəyə dəvət olunur.

3.6.2. Namizəd ona təqdim olunmuş müvafiq formu doldurmadıqda, üzvlük səbəbini açıqlamadıqda, müsahibəyə təyin olunmuş vaxtda üzrsüz səbəbdən gəlmədikdə və müsahibədən uğurlu geri dönüş almadıqda, onun üzvlüyü qəbul olunmur.

3.7. Üzvlər təşkilat qarşısında əsasnaməyə əməl etmək, gördüyü işlərə məsuliyyətlə yanaşmaq, struktur bölməsinin qərarlarını yerinə yetirmək öhdəliklərini daşıyırlar.

3.8. Təşkilat ləğv edildikdə, təşkilatın üzvlüyündən xaric olunduqda və könüllü şəkildə üzvlükdən imtina etdikdə, onların fəaliyyətinə xitam verilir.

3.9. Təşkilat üzvünün fəaliyyətinə aşağıdakı hallarda xitam verilir:

3.9.1. Təşkilatın əsasnaməsində qeyd olunan bəndlər pozulduqda;

3.9.2. Təşkilatın nüfuzuna xələl gətirən fəaliyyətlər icra olunduqda;

3.9.3. Davamlı olaraq fəaliyyətsiz qalmaq və ardıcıl bir neçə tədbirdə səbəb göstərmədən iştirak etməmək;

3.9.4. Könüllü şəkildə üzvlükdən imtina etdikdə;

3.9.5. Universitetdən xaric olunduqda.

**4. Təşkilatın strukturu**

4.1. Təşkilatın idarə olunması üçün fəaliyyət göstərən heyət aşağıdakılardan ibarətdir:

4.1.1. Sədr

4.1.2. Ümumi işlər üzrə sədr müavini

4.1.3. Fakültələrlə iş üzrə sədr müavini

4.1.4. Təşkilati işlər üzrə sədr müavini

4.1.5. Fakültə sədrləri

4.1.6. Departament rəhbərləri

**5. Seçki prosedurları**

5.1. Təşkilata sədr olmaq üçün namizədlər aşağıdakı tələblərə cavab verməlidir:

5.1.1. UNEC-in bakalavr pilləsində (IV kurs istisna olmaqla) təhsil almalıdır.

5.1.2. Akademik borcu olmamalı və ÜOMG-si 71-dən az olmamalıdır.

5.1.3. Qüvvədə olan intizam tənbehi olmamalıdır.

**6. Təşkilatın fəaliyyətinin təşkili, layihə və proqramlar**

6.1. Təşkilat yerli təşkilatlarla əməkdaşlıq edir və müxtəlif layihələrin həyata keçirilməsində iştirak edir.

6.2. Təşkilat davamlı inkişafı təmin etmək üçün innovativ layihələr üzərində işləyir və yeni ideyaları dəstəkləyir.

6.3. Layihə və tədbirlərin təşkili müvafiq departamentlər tərəfindən həyata keçirilir və İdarə Heyəti tərəfindən koordinasiya olunur.

6.4. Təşkilatın fəaliyyəti bu Əsasnamə çərçivəsində həyata keçirilir.

**7. Təşkilatın yaradılması, yenidən təşkili və fəaliyyətinə xitam verilməsi**

7.1. Təşkilatın yaradılması, yenidən təşkili və ya ləğv edilməsi UNEC-in Elmi Şurasının müvafiq qərarı ilə həyata keçirilir.